

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 237 (23.148)

*12 dekabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Azərbaycanın özü qədər əbədi



***Müasir Azərbaycan tarixinin əsas inkişaf və yüksəliş mərhələsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi tariximizə qızıl hərflərlə yazılmışdır.***

Ulu öndərimiz Heydər Əliyevin həyatının mənası Azərbaycan idi, ölkəmizin inkişafı və tərəqqisi idi. Ümummilli liderimizin respublikamıza rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan müstəqilliyə qovuşmuş, Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsasları və müstəqillik konsepsiyası hazırlanmışdır. Ölkəmizin tarixinə Qurucu və Xilaskar RƏHBƏR kimi daxil olmuş ulu öndər xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmişdir. Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövləti, xalqımızın xoşbəxt gələcəyi naminə gördüyü işlərdə həmişə xalqa arxalandığını vurğulayaraq demişdir: ***"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".***

Xalqımızın böyük oğlu Heydər Əliyev tarixin ən çətin, məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıdan, onu sevərək hifz edən, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirən qüdrətli bir şəxsiyyətdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən ümummilli liderimiz hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan qurtarmışdır.

Dahi şəxsiyyət özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz görkəmli dövlət xadimi Heydər Əliyevə məxsusdur. Onun Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Müasir, müstəqil Azərbaycan dövləti də məhz ulu öndərimizin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Görkəmli dövlət xadimi ilk dəfə respublikaya rəhbər seçiləndən sonra müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, sənayenin, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılmış, ölkəmiz sürətlə inkişaf edərək Sovet İttifaqında ən qabaqcıl yerlərə çıxmışdır.

Ulu öndərimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***"Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması həlә 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Apardıqları təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi".***

Reallıq budur ki, sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, akademik nəşrlərin hazırlanması, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması çox böyük cəsarət, qətiyyət tələb edirdi. Bütün bunlar xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir. 1969-1982-ci illərdə dahi şəxsiyyətin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də elmin və təhsilin inkişafı idi. Kənd yerlərində məktəblərin sayının sürətlə artırılması gənc nəslin maarifləndirilməsində, hərtərəfli biliyə yiyələnməsi istiqamətində böyük əhəmiyyət kəsb edirdi. Həmin dövrdə Azərbaycanın şəhər və kəndlərində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır. Azərbaycanda hərbi məktəb yaradılmış, milli hərbçi kadrların yetişdirilməsinə başlanılmışdır. Məhz ulu öndər Heydər Əliyevin gərgin səyi nəticəsində azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilmişdir. Həmin gənclər təhsillərini başa vurduqdan sonra yenidən respublikaya dönərək müxtəlif sahələrdə öz fəaliyyətlərini davam etdirmişlər. Bu da sərt sovet rejimində milli kadrların yetişdirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi.

Ulu öndərimiz Heydər Əliyevin həmin dövrdə Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

1982-ci ildə ümummilli liderimizin SSRİ-də rəhbər vəzifəyə irəli çəkilməsindən sonra Azərbaycanın hərtərəfli inkişafı ilə yanaşı, xalqımızın dünya arenasında tanıdılması və təbliği istiqamətində görülən işlərin miqyası daha da genişləndirilmişdir. 1982-87-ci illərdə Heydər Əliyev şəxsiyyətinə görə keçmiş Sovetlər Birliyində Azərbaycanla hesablaşır, ölkəmizdəki inkişafın qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Azərbaycanın inkişafını dayandırmaq, parçalamaq üçün yeganə bir yol vardı – ölkəni Heydər Əliyev inkişaf xəttindən uzaqlaşdırmaq. Nəhayət, 1987-ci ildə bu məkrli plan həyata keçirildi, ümummilli liderimiz rəhbər vəzifədən istefa verdi. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Ölkəmizin suverenliyinə edilən qəsd tarixi torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələndi, Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Lakin yenə də ulu öndər xalqının səsinə səs verdi, siyasi təqiblərə baxmayaraq, Azərbaycan uğrunda mübarizəyə qayıtdı, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını ittiham etdi, xalqımızın başına gətirilən müsibəti bütün dünyaya çatdırdı.

Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıdan ulu öndərimiz iki gün sonra, iyulun 22-də doğma Naxçıvana gəlmiş və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir. 1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ümummilli liderimizin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilmiş, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülmüşdür. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də görkəmli dövlət xadiminin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi.

1990-1993-cü illərdə dahi şəxsiyyət çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görülmüşdü. Dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, blokada şəraitində yaşayan Naxçıvanın gələcək inkişafını təmin edəcək işlərin bünövrəsinin qoyulması dahi rəhbərin qətiyyəti və təşəbbüsü nəticəsində mümkün olmuşdu. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan quruculuq xəttinə, inkişafın, tərəqqinin Heydər Əliyev yoluna qayıtdı. Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalqlider birliyinin bariz təzahürü kimi tarixin yaddaşına həkk olunub.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ümummilli liderin rəhbərliyi ilə Naxçıvan inkişaf edir, cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımlar atılırdı. Azərbaycan xalqı belə cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını tələb edirdi. Belə bir şəraitdə – 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdı. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyuldu və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə yenidən ölkəmizə hakimiyyətə qayıdışı barədə demişdir: ***"Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, eyni zamanda bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Onun dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli olmuşdur. Dahi şəxsiyyət o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: ***"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".***

Dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur.

Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

Ulu öndərimizin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçmişdir. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmiş, həm də müstəqil, milli dövlətçiliyin əsasını qoymuş, yeni idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Ötən hər gün Azərbaycanı daha böyük tərəqqiyə qovuşdurur.

Ulu öndərimizin müəyyənləşdirdiyi sosial-iqtisadi strategiya, quruculuq xətti bu gün ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da layiqincə davam etdirilir. Bu səbəbdəndir ki, qədim diyarımız on illərə bərabər inkişaf yolu keçərək müasirliyə qovuşmuşdur. Həyatın bütün sahələrində böyük uğurlar qazanılmışdır. Bu uğurların təməlində Heydər Əliyev yoluna böyük inam, Heydər Əliyev ideyalarına sədaqət dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!"***

**"Şərq qapısı"**

## Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs təşkil edilib



*Dekabrın 11-də muxtar respublikanın 200-dən artıq ümumtəhsil məktəbi ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs keçilib.*

Ümummilli liderimizin həyatı və siyasi fəaliyyəti haqqında keçilən açıq dərsdə muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev əvvəlcə mədəniyyət müəssisəsi barədə şagirdlərə ətraflı məlumat verib. Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və həmin il may ayının 10-dan fəaliyyətə başlayıb. Bu gün Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz içərisində Naxçıvandakı Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Hələ ümummilli liderin sağlığında yaradılan muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb. Hazırda burada ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 746 eksponat vardır.

Açıq dərsdə vurğulanıb ki, dahi rəhbərin vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzül burulğanından çıxararaq respublikamızı qısa vaxt ərzində qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib. Qüdrətli siyasətçinin əzmi və iradəsi ilə Azərbaycan dövləti 1990-1993-cü illərin ağır hadisələrindən keçib gələrək parçalanıb məhv olmaq təhlükəsindən qurtarıb. Müstəqil dövlətçilik yolunda ilk addımları məhz Naxçıvanda atan ümummilli liderin təşəbbüsü ilə üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentində qaldırılıb, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılıb, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılıb.

Vurğulanıb ki, ulu öndərin 1993-cü ilin iyununda siyasi hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımızın ən qiymətli mənəvi-ideoloji sərvətinə çevrilib. Bugünkü güclü, qüdrətli Azərbaycanı O, öz əlləri ilə qurub-yaradıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ulu öndər ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlayıb və reallaşdırılmasını təmin edib. Ona görə də xalqımız ümummilli lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. ***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub”***, – deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Müdrik rəhbər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Ulu öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır.



*Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb*



*Culfa rayonu, Qazançı kənd tam orta məktəbi*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş “Heydər Əliyev – əbədiyaşar lider” mövzusunda anım tədbiri keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu sahəsində ulu öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyətindən, misilsiz xidmətlərindən bəhs edib. Bildirilib ki, ümummilli liderin respublikamıza rəhbərliyi ilə bütün sahələrdə yüksəlişə nail olunub, ölkənin hərtərəfli inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, dahi lider xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməklə Azərbaycanı üzləşdiyi bəlalardan xilas etdi. Uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırdı, hərtərəfli inkişafına nail oldu, müstəqilliyini əbədi və dönməz etdi, Azərbaycan dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi. Dahi öndərin əbədiyaşar ideyalarının bu gün uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə, beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin “Heydər Əliyev – əbədiyaşar lider” mövzusunda məruzəsi dinlənilib. Məruzəçi ümummilli lider Heydər Əliyevin ***“Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!”*** sözlərini xatırladıb, ulu öndərin misilsiz tarixi xidmətlərindən danışıb. Ümummilli liderin milli dövlətçilik ənənələrimizin dirçəldilməsi ilə bağlı həyata keçirdiyi tədbirləri tarixi faktlarla iştirakçıların diqqətinə çatdıran Musa Quliyev qeyd edib ki, görkəmli dövlət xadiminin uzaqgörənliyi, güclü iradəsi və müdrik siyasəti sayəsində Azərbaycan, o cümlədən Naxçıvan sürətlə inkişaf edir, Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

* * *

*Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin 226-cı məşğələsi keçirilib. “Ümummilli lider Heydər Əliyev və ölməzlik zirvəsi” adlanan məşğələdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən, onun Azərbaycanın dövlətçilik tarixindəki əhəmiyyətli rolundan danışıb. Vurğulayıb ki, müstəqilliyimizin qorunub saxlanılması, davamlı və dayanıqlı iqtisadi inkişafın təmin olunması, ölkəmizin digər dövlətlər arasında layiqli yer tutması Heydər Əliyevin uzaqgörənliyi və praqmatik siyasi fəaliyyəti nəticəsində mümkün olub.

“Ümummilli lider Heydər Əliyev və ölməzlik zirvəsi” adlı çıxışında Ümumi tarix kafedrasının müəllimi Ruhiyyə Rzayeva dahi siyasətçi, görkəmli dövlət xadimi və böyük şəxsiyyət olan Heydər Əliyevin şərəfli həyat yolunun müxtəlif mərhələlərini müasir dövrümüzlə müqayisəli paralellər gətirməklə təhlil edib. Ölkəmizə rəhbərlik dövrü böyük quruculuq, inkişaf, sabitlik və tərəqqi illəri kimi tarixə yazılan, ən çətin məqamlarda xalqının köməyinə çatan, Azərbaycanı məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbərin xalq və Vətən naminə fəaliyyətinə həsr olunmuş mənalı ömür yoluna nəzər salınıb.



Məşğələdə ümummilli liderin həyat və fəaliyyətinin əks olunduğu videoçarx nümayiş olunub.

**Səadət ƏLİYEVA**

* * *



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Kosacan kəndində keçirdiyi ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev böyük şəxsiyyətin keçdiyi şərəfli ömür yolundan və ictimai-siyasi fəaliyyətindən danışıb.

Bildirilib ki, tarixə müstəqil dövlətimizin qurucusu kimi daxil olan ümummilli lider Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan gərgin fəaliyyətinin əsas məqsədi Azərbaycanı qüdrətli bir ölkə kimi görmək idi. Ulu öndər bu yolda qəti addımlar atıb, əməli işlər görüb, iqtisadi inkişaf yoluna çıxardığı Azərbaycanın etibarlı gələcəyini təmin edib. 1969-cu ildən başlayaraq ulu öndərimizin şəxsi nüfuzu, yüksək təşkilatçılıq qabiliyyəti və yorulmaz fəaliyyəti nəticəsində qısa müddət ərzində Azərbaycan bütün sahələrdə vüsətli inkişaf mərhələsinə qədəm qoydu.

Əmir Babayev deyib ki, ümumiyyətlə, Azərbaycanın 1969-cu ildən başlayan və 30 ildən artıq bir dövrü əhatə edən ən yeni tarixi, bu dövrdə müstəqil dövlət kimi ölkəmizin və xalqımızın taleyi, ölkə həyatının bütün sahələrində əldə edilmiş möhtəşəm nailiyyətlər dahi şəxsiyyət Heydər Əliyevin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlıdır. “Tariximizin Heydər Əliyev dövrü” kimi dəyərləndirilən bu zaman kəsiyində ulu öndər tərəfindən görülən böyük işlərin, xilaskar və qurucu kimi həyata keçirdiyi tədbirlərin məntiqi nəticəsidir ki, bu gün xalqımız müstəqil, demokratik və hüquqi bir dövlətdə yaşamaq xoşbəxtliyini əldə edib.

Qeyd olunub ki, Azərbaycan bu gün böyük siyasi kursun layiqli davamçısı Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyir. Ölkə başçısının məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan əhəmiyyətli beynəlxalq təşkilatların nüfuzlu üzvlərindən birinə çevrilib.

Tədbirdə Kosacan kənd tam orta məktəbinin direktoru Asim Həsənov, Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Nuran Əzizov, partiya fəalı Jalə Xəlilova və başqaları çıxışlarında vurğulayıblar ki, bugünkü müstəqil Azərbaycanın ayrılmaz hissəsi olan muxtar respublikamızda da ulu öndər Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir. Naxçıvan bu ideyaların işığında özünün yeniləşən inkişaf mərhələsindədir. Muxtar respublikamız geniş quruculuq meydanına çevrilib. İqtisadi yüksəliş, çoxşaxəli dinamik inkişaf aydan-aya, ildən-ilə Azərbaycanımızın bu qədim diyarına yeniliklər gətirir. Bütün bunlar dahi rəhbər Heydər Əliyevin ideyalarına sadiqliyin bəhrələridir.

**Elman MƏMMƏDOV**

* * *

*Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu” mövzusunda tədbir keçirilib.*

Naxçıvan Qarnizonunun şəxsi heyətinin iştirakı ilə keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Naib Cəfərov çıxış edərək bildirib ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, qətiyyətli siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvandan başlanılıb. Bu gün qədim Naxçıvan diyarının müdafiə qüdrətini təmin edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti torpaqlarımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli liderimizin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Zaur Həmidov və Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan ətraflı danışıblar.

Tədbirdə əsgərlər, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri tərəfindən ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

Sonda hərbi-vətənpərvərlik mövzusunda videoçarx nümayiş olunub.

**Nəriman NƏCƏFOV**

* * *

Naxçıvan Dövlət Film Fondunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə bağlı “Əbədiyaşar lider” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparıcı məsləhətçisi Kənan Tağızadə və Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Səyyar Məmmədov çıxış edərək bildiriblər ki, Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

Vurğulanıb ki, XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurub, ona azadlıq bəxş edib. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanıb.

Tədbirin sonunda “Heydər Əliyev mədəniyyətimizin hamisi” sənədli filminə baxış olmuşdur.

**Əli RZAYEV**

## Əhalinin sosial təminatı diqqət mərkəzindədir

*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində cari ilin noyabr ayı ərzində 323 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub ki, onlardan 83-nü gənclər, 38-ni qadınlar təşkil edib. Ünvanlı sosial yardımın alınması üçün əhalinin sosial müdafiəsi mərkəzlərinə müraciət edən 10 nəfər münasib işlə təmin olunub.*

Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşə kurslarını müvəffəqiyyətlə bitirənlərdən 20-si xidmət mərkəzlərində işlə təmin edilib.

Bununla yanaşı, işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək üçün ötən ay ərzində 25 nəfər müvəqqəti və mövsümi xarakterli işlərə göndərilib. Həmçinin 29 sağlamlıq imkanları məhdud qadınla bağlanılan müqavilələr əsasında toxunulmuş 86 yun şərf və 1165 cüt yun corab təhvil alınaraq hərbi hissəyə təqdim edilib. Noyabr ayında Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti peşəsi üzrə 24, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər peşəsi üzrə isə 10 nəfərdən ibarət kurslar da təşkil edilib. Kursa cəlb olunanlardan 4 nəfəri sağlamlıq imkanları məhdud şəxsdir.

Noyabr ayında 245 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə evlərində, 9 nəfərə isə Ahıllar Evində sosial xidmət göstərilib. Həmçinin sağlamlıq imkanları məhdud 76 şəxsə sanatoriya və pansionatlara göndəriş verilib, aztəminatlı və sosial müdafiəyə xüsusi ehtiyacı olan 278 nəfər 18 yaşadək sağlamlıq imkanları məhdud məktəbli uşağın hər biri qış geyimləri ilə təmin edilib. Bununla yanaşı, beynəlxalq gözdən əlillər günü münasibətilə 300 nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan gözdən əlil şəxsə sovqat verilib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın müəyyənləşdirdiyi vəzifələr noyabr ayında da ardıcıllıqla icra olunub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant dərslərin tədrisi, müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərin artırılması üzrə məşğələlər və bu kateqoriyadan olan uşaqlara müxtəlif reabilitasiya xidmətləri ay ərzində də davam etdirilib, mərkəzin audiokitabxana xidmətindən istifadə edən görmə qabiliyyəti məhdud şəxslər tərəfindən 573 əsər dinlənilib. Noyabr ayında Mədəniyyət Nazirliyi ilə birgə istedadlı sağlamlıq imkanları məhdud uşaqların ifasında konsert proqramı da təşkil olunub. Konsertin yekununda iştirakçılara diplom və qiymətli hədiyyələr təqdim edilib. Noyabr ayında sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu Zabitlər Evində hərbçilər qarşısında konsert proqramı ilə çıxış edib.

Muxtar respublikada idmanın inkişafı üçün yaradılan şərait məhdud fiziki imkanlı uşaqların da idmana maraqlarının artmasına səbəb olub. Onların cəmiyyətə inteqrasiyası məqsədilə noyabr ayında sağlamlıq imkanları məhdud şəxslər arasında şahmat üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.

"Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində də müvafiq tədbirlər həyata keçirilib. Bu məqsədlə Naxçıvan Uşaq Bərpa Mərkəzində 19 sağlamlıq imkanları məhdud uşaq müalicə kursu qəbul edib. 18 yaşından yuxarı sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyası məqsədilə noyabr ayında Əlillərin Bərpa Mərkəzində 26 nəfərin müalicəsi təşkil edilib, 77 nəfərə isə sanatoriya və pansionatlara göndəriş verilib. Müvafiq dövr ərzində 48 nəfər texniki reabilitasiya və digər köməkçi vasitələr ilə təmin edilib, 30 nəfər sağlamlıq imkanları məhdud şəxsə isə protez-ortopedik xidmətləri göstərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Torpaqların təyinatı üzrə istifadəsi və mühafizəsi sahəsində görülən işlər müzakirə olunub



Bununla bağlı keçirilən müşavirəni Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb. Qeyd olunub ki, torpaqlardan istifadəyə nəzarətin gücləndirilməsi, torpaq sahələrinin, xüsusilə də kənd təsərrüfatı torpaqlarının təyinatı üzrə istifadəsi, bu sahədə aşkar edilən qanun pozuntularına qarşı mübarizə aparılması ilə bağlı bu ilin noyabr ayında Babək rayonunun qəsəbə və kəndlərində reyd yoxlamaları keçirilib.

İcra başçısı bildirib ki, torpaqlardan istifadə ilə bağlı muxtar respublikada dövlət səviyyəsində aparılan işlərə baxmayaraq, bəzi vətəndaşlar qanunvericiliyi bilərək və ya bilmədən pozur, onlar torpaqlardan istifadə, tikinti aparılması qaydaları, mühafizə zonaları ilə bağlı qadağa və tələblərdən məlumatsız olurlar. Bu şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Qeyd olunub ki, aparılan yoxlamaların nəticəsində rayonun Şıxmahmud-Xəlilli, eləcə də Aşağı və Yuxarı Uzunoba kəndlərində bələdiyyə ilə müqavilə bağlamadan 5 halda torpaqlardan qanunsuz istifadə halları aşkarlanıb. Monitorinqin nəticələrinə əsasən həmin faktlar aradan qaldırılıb və torpaqlar bələdiyyə fonduna qaytarılıb.

Diqqətə çatdırılıb ki, torpaqlardan qanunsuz istifadənin qarşısını almaq üçün inzibati tədbirlərlə yanaşı, icra nümayəndələri, polis sahə müvəkkilləri, bələdiyyələr vətəndaşlar arasında geniş maarifləndirmə və izahat işləri də aparmalı, bu sahədə tətbiq olunan qanunvericilik normaları onlara izah olunmalıdır.

Daha sonra Babək Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Teymur Quliyev və rayon prokuroru, baş ədliyyə müşaviri Əsrafil Əsgərov torpaq üzərində mülkiyyət hüququnun pozulması zamanı qanunvericilikdə nəzərdə tutulan inzibati tədbirlər barədə ətraflı məlumat veriblər.

**Muxtar RZAZADƏ**

***Doğma diyarımız ilkin yaşayış məskəni, qədim sivilizasiya mərkəzidir. 5000 illik şəhər mədəniyyətinə malik olan qədim Naxçıvan torpağı tarixə tanınmış, görkəmli şəxsiyyətlər bəxş etmişdir. Təsadüfi deyildir ki, 11-13 iyul 1996-cı ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun iştirakçılarına göndərdiyi təbrik məktubunda xalqımızın ümummilli lideri Heydər Əliyev bu cəhəti xüsusi vurğulayaraq qeyd etmişdir: "Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində rolu danılmazdır".***

## Nemətullah Naxçıvani Anadolu torpağında

Doğrudan da, başda ümummilli liderimiz olmaqla Nəsirəddin Tusi, Məhəmməd Hinduşah Naxçıvani, Nemətullah Naxçıvani, Kəlbəli xan, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, İbrahim Səfiyev və başqaları Naxçıvan torpağının övladları kimi öz adlarını tarixə qızıl hərflərlə yazdırmışlar. Onu da qeyd edək ki, milli mədəniyyətimizin, milli maarifimizin inkişafına töhfə vermiş bu görkəmli şəxsiyyətlərin irsi sovet dövründə birtərəfli şəkildə tədqiq edilmiş və ya ümumiyyətlə, öyrənilməmiş, diqqətdən kənarda qalmışdır. Müstəqillik illərində milli mədəniyyətimiz və elmimizin inkişafına töhfə vermiş bu şəxsiyyətlərin irsinin öyrənilməsi üçün münbit şərait yaradılmış, diqqət və qayğı artırılmışdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin XV-XVI əsrdə yaşamış görkəmli İslam alimi Mövlana Nemətullah ibn Mahmud ən Naxçıvaninin irsinin toplanması və tədqiqi ilə bağlı 29 oktyabr 2018-ci il tarixdə imzaladığı sərəncam milli mədəniyyətimizin tədqiqinə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Sərəncamda qeyd edildiyi kimi, Nemətullah Naxçıvaninin elmi dünyagörüşünün formalaşmasında və kamilləşməsində Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olmuş, ona "Baba" titulu burada yaşadığı illərdə mötəbər dini rütbə kimi verilmişdir. Şərqin böyük filosofu Nemətullah Naxçıvaninin elmi yaradıcılığında qədim türk sivilizasiyası ilə İslam dini dünyagörüşü vəhdət təşkil etmişdir.

Bu böyük mütəfəkkir daha sonra fəaliyyətini o dövrün mədəniyyət mərkəzi kimi tanınmış Təbriz şəhərində davam etdirmiş, burada dini elmlərin inkişafında böyük əmək sərf etmişdir. Bu baxımdan Nemətullah Naxçıvaninin qələmə aldığı "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə" ("Qurani-Kərim"in kəlmə və hikmətlərini açıqlayan qeybin açarı və ilahi fəthi) adlı dini-fəlsəfi əsəri ona böyük şöhrət qazandırmışdır. Bu dəyərli tədqiqat əsəri müqəddəs kitabımız "Qurani-Kərim"in bütün ayələrinin sufizm baxımından təfsiri, şərhindən ibarətdir. Təbrizdə bu İslam mütəfəkkirinin xidmətləri nəzərə alınaraq ona "Nəqşibəndi təriqətinin şeyxi" titulu verilmişdir.

Məlumdur ki, Anadolunun fəthindən sonra bölgədə İslamın yayılması işi həyata keçirilməyə başlanılmışdır. Bunun üçün Türk dünyasının müxtəlif bölgələrindən sufilər, övliyalar Anadoluya gəlib yerləşmiş, təkkə qurmuş, dinin yayılmasına xidmət göstərmişlər. Bunlardan Hacı Bəktaşi Vəli, Mövlana Cəlaləddin Rumi, Şəms Təbrizi, Hacı Bayram Vəli, Baba İlyas, Geyikli Baba, Sührəverdi və digər sufiləri, övliyaları misal göstərmək olar. Onlardan biri də görkəmli sufi şeyxi, filosof Baba Nemətullah ibn Mahmud ən-Naxçıvanidir.

Bu böyük mütəfəkkir 1498-ci ildə Cənubi Azərbaycanda siyasi vəziyyətin qarışması ilə əlaqədar Təbriz şəhərini tərk etmiş, İstanbula gəlmiş, üzvü olduğu nəqşibəndiyyə təriqətinin şeyxlərinin dərgahına üz tutmuşdur. O dövrdə İstanbul artıq 45 il idi ki, fəth edilmişdi. Burada üləmalar, din alimləri toplanmışdı. Amma Anadolunun elm və ürfan xadimlərinə çox ehtiyacı var idi. Ona görə də tanınmış sufi şeyxi və filosof Nemətullah Naxçıvani elm və ürfan yaymaq üçün indiki Konya vilayətinin Ağşəhər rayonuna göndərilmişdir. 1499-cu ildə Ağşəhərə yerləşən Nemətullah Naxçıvani burada zaviyə qurub sufizmin təbliği ilə məşğul olmuşdur. Böyük mütəfəkkir az sonra bu mərkəzi zaviyədən daha böyük olan təkkəyə çevirmişdir. Onun təşkil etdiyi həmin mərkəz sənədlərdə "Əvkafi-zaviyeyi-Nemətullah Naxçıvani" adını daşımışdır. Qısa müddətdə xalqın rəğbətini qazanan bu İslam alimi həmin təkkənin şeyxi sifətilə ətrafına müridlər toplamış, gənclərə dini təhsil vermiş, övliya kimi tanınmışdır. Anadolu ellərində onun kitabları, yazdığı təfsirlər müsəlman əhalinin maariflənməsində böyük rol oynamışdır. Sufi filosofu Nemətullah Naxçıvani Ağşəhərdə yaşayarkən hələ XIII əsrdə Konyada dərgahı və mövləvixanəsi olan məşhur türk filosof şairi Mövlana Cəlaləddin Rumi yaradıcılığına da böyük maraq göstərmişdir. Ehtimal ki, onun "Şərhi-rubai-Şeyx Cəlaləddin" məqaləsi Mövlana Rumi rübailərinin şərhinə həsr edilmişdir.

İslam mütəfəkkiri Baba Nemətullah Naxçıvani 1514-cü ildə haqqın rəhmətinə qovuşduqdan sonra oğlu Mövlana Hacı Əli Çələbi həmin vəqfin sahibi olmuşdur. Çox təəssüf ki, bu gün bu təkkədən heç bir iz qalmamışdır. Onu da qeyd etmək lazımdır ki, Nemətullah Naxçıvani nəqşibəndiyyə təriqətinin xəlvətiyyə qoluna mənsub olmuşdur. Bu qrupa mənsub olan din xadimləri




isə, demək olar ki, xalq arasına çıxmır, daha çox ibadətlə məşğul olurdular. Bu cür həyat tərzinə alışmış Nemətullah Naxçıvani sağlığında belə, regionun üləma zümrəsi arasında ən tanınmış din xadimi olmuşdur. Belə ki, hələ XVI əsrdə yaşamış Osmanlı dövlətinin salnaməçisi Əhməd əfəndi Taşköprüzadə "Şəqayiqün-Numaniyyətü fi Üləmad Devlətil-Osmaniyyə" adlı irihəcmli əsərində bu cəhəti vurğulayaraq böyük İslam mütəfəkkiri haqqında yazmışdı: "Allah yolunda xidmət edən ariflərdən biri, dərvişlik və sufiliyin fəxri olan Baba Nemətullah özünü xalqdan gizlədirdi. O, rəbbani elmlərdə dərin bilik sahibi olmuşdur". XVII əsrdə yaşamış məşhur Osmanlı müəllifi Katib Çələbi də öz əsərində bu məlumatı təkrar qeyd etməyi lazım bilmişdir.

Nemətullah Naxçıvaninin, yuxarıda da qeyd etdiyimiz kimi, müqəddəs kitabımız "Qurani-Kərim"in bütün ayələrini sufizm baxımından şərh edən "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə" adlı təfsirinin şəxsən öz əlyazmasıyla olan nüsxəsi, hazırda İstanbul şəhərindəki Topqapı Sarayı Üçüncü Əhməd xan kitabxanasında saxlanılmaqdadır. Onu da qeyd etmək lazımdır ki, bu əsər Sultan Əbdülhəmidin göstərişi ilə 1907 və 1908-ci illərdə İstanbulda dövlət mətbəəsində nəşr olunmuşdur. Bu qiymətli təfsir kitabının nəşrinə bir də XXI əsrdə müraciət edilmişdir. İslamşünas alim Ali İhsan Türcan bu əsəri üç cild halında 2013-2016-cı illərdə Türkiyə Cümhuriyyətinin Kayseri şəhərində "Naxçıvani təfsiri" adı ilə nəşr etdirmişdir. Maraqlıdır ki, Türkiyə Cümhuriyyətinin bir çox kitabxana və muzeylərində bu böyük mütəfəkkirin qiymətli əsərlərinin əlyazmaları bu gün də qorunub saxlanılır və tədqiqatçılar tərəfindən elmi cəhətdən araşdırılır.

Tarixdə və günümüzdə, xüsusilə ağşəhərlilər arasında "Şeyx Əlvan", "Nemətullah Naxçıvani", "Baba Nemətullah" və "Nemətullah Sultan" kimi adlarla keçən bu böyük türk-islam alim və övliyası zamanındakı alim və övliyaların ən üstünlərindən idi.

Baba Nemətullah Naxçıvaninin türbəsi olmuşdur. Vaxtilə Ağşəhərdə Təkkə kəndinə gedən yolun üstündə, sağ tərəfdə və Ağşəhər çayının solunda yerləşən türbə bir neçə dəfə təmir edilmişdir. Türbənin önündə bir hovuz da tikilmişdir. Onu da qeyd etmək lazımdır ki, sonralar türbə ləğv olunmuş, sərdabə məzar şəklinə düşmüşdür. Ağşəhərin bu ərazisi vaxtilə Köycəyiz məhəlləsi adını daşımış, müasir dövrdə isə Çimənli məhəlləsi adlandırılır. O böyük şəxsi sevənlər məzarını ziyarət edərək mübarək ruhaniyyətinə ehtiram göstərməklə ruhuna dualar oxuyublar. Baba Nemətullah Naxçıvaninin məzar sənduqəsində böyüklü-kiçikli beş ayrı daş kitabə mövcuddur, ikinci daşın kitabəsində belə yazılır: "Ey dost. Kibari-əhlullahdan və müfəssirini-izamdan xacə Nimətullah kuddisə həzrətlərinin mübarək, nurlu qəbirləridir". Üçüncü daşın kitabəsində isə 5 beytdən ibarət şeir yazılmışdır. Bu şeirin birinci misrası "Həqiqət sərəfraz övliyadır Həzrət Nemət Baba" şəklindədir. Təvazökar bir həyat sürən, elmə və ürfana böyük xidmətlər göstərən, çox tələbə yetişdirən və dövrünün ən böyük şəxslərindən olduğu qaynaqlarda qeyd edilən Naxçıvani həzrətlərinin qəbri bu gün ağşəhərlilərin ən çox ziyarət etdikləri yerlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamda qeyd olunduğu kimi, "Nemətullah Naxçıvani məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi Azərbaycan və Türkiyə elm tarixində mühüm yer tutur". Həmin əhəmiyyətli dövlət sənədində də vurğulandığı kimi, orta əsrlərdə yaşamış naxçıvanlı mütəfəkkirlər içərisində özünəməxsus yüksək yeri və mövqeyi olan Nemətullah Naxçıvaninin fəlsəfi irsinin geniş və hərtərəfli tədqiqinə böyük ehtiyac vardır.

Muxtar respublikada qədim tariximizin, görkəmli tarixi şəxsiyyətlərimizin, elm və din xadimlərimizin həyat və fəaliyyətlərinin öyrənilməsi və təbliğinə hərtərəfli dövlət qayğısının növbəti ifadəsi olan adıçəkilən sərəncam tanınmış alim Nemətullah Naxçıvani şəxsiyyəti və yaradıcılığının geniş və əhatəli şəkildə tədqiqində yeni mərhələnin əsasını qoyub.

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

## Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində daşınmaz əmlak obyektlərinin pasportlaşdırılmasına başlanılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il noyabrın 29-da Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında Sərəncam imzalayıb, dekabrın 5-də Şahbuz rayonunun Ağbulaq kəndində Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olub. Bu münasibətlə keçirilən tədbirdə Ali Məclisin Sədri Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinə turizm istirahət bölgəsinin torpaq ehtiyatlarının qorunması və səmərəli istifadəsinin təmin edilməsi, qanunsuz tikintilərin qarşısının alınması, bütün tikintilərin layihə əsasında aparılması və pasportlaşdırılması ilə bağlı tapşırıqlar verib.

Verilmiş tapşırıqların icrasını təmin etmək üçün Ağbulaq kəndində torpaq sahələrinin plana alınması və daşınmaz əmlak obyektlərinin inventarlaşdırılması işlərinə başlanılıb. Dekabrın 8-də Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə



Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə Ağbulaq kəndində sakinlərə görüləcək işlərlə bağlı məlumat verib.

Bildirilib ki, dövlətimizin diqqət və qayğısı sayəsində kənddə aparılmış kompleks quruculuq tədbirləri çərçivəsində kənd sakinlərinə məxsus fərdi yaşayış evlərində də yenidənqurma işləri aparılıb, həyətyanı sahələr abadlaşdırılıb. Baş vermiş dəyişikliklər vətəndaşlara verilən texniki və mülkiyyət sənədlərində düzgün əks etdirmək üçün aparılacaq planaalma işləri nəticəsində vətəndaşlara məxsus torpaq sahələrinin sərhədləri dəqiqləşəcək, daşınmaz əmlak obyektləri pasportlaşdırılaraq uçota alınacaq. Komitənin səyyar xidmət qrupu tərəfindən mülkiyyət sənədləri hazırlanaraq yerindəcə vətəndaşlara təqdim ediləcək. Nəticədə, kənd sakinlərinin rahatlığı təmin olunacaq, onların rayon mərkəzinə və Naxçıvan şəhərinə üz tutmalarına zərurət yaranmayacaq.

Torpaq ehtiyatlarının qorunması və səmərəli istifadənin təmin edilməsi ilə bağlı məlumat verən komitə sədri qeyd edib ki, hər bir torpaq mülkiyyətçisi yaradılan şəraitdən düzgün bəhrələnməli, torpaqlardan məqsədyönlü şəkildə istifadə edilməlidir. Torpaq sahələrinin özbaşına tutulması, qanunsuz tikililərin inşası hallarına yol verilməməlidir.

Sonra kənd sakinlərini maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## *“Gənclərdə büdcə savadlılığı”* layihəsinə start verilib



*Muxtar respublikada təhsil sahəsinə xüsusi qayğı göstərilir, gənclərin bilikli, ixtisaslı kadr kimi yetişmələri daim diqqətdə saxlanılır, bu sahədə dövlət proqramları və genişəhatəli layihələr həyata keçirilir. Maliyyə Nazirliyi tərəfindən icrasına yeni başlanılan “Gənclərdə büdcə savadlılığı” layihəsi də muxtar respublikada bu sahədə aparılan işlərin davamıdır.*

Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə layihə çərçivəsində ilk təlim Naxçıvan Dövlət Texniki Kollecində keçirilib.Təlimə təhsil ocağının Mühasibat uçotu, Bank işi, Rabitə qovşaqları və kommunikasiya sistemləri və digər ixtisasları üzrə 100-dən çox tələbə cəlb olunub. Bu münasibətlə təşkil olunan tədbiri giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq belə tədbirlərin faydalarından bəhs edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin aparat rəhbəri Tural Şirəlizadə çıxış edərək yeni layihə haqqında ətraflı məlumat verib, əhəmiyyəti və aktuallığı barədə danışıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamına əsasən hamiliyə götürülən müvafiq ixtisaslarda təhsil alan tələbələrlə bağlı müxtəlif tədbirlər həyata keçirilir. Növbəti layihə də məhz müvafiq sərəncamın icrası istiqamətində görülən işlərin tərkib hissəsidir. Belə tədbirlərin digər təhsil müəssisələrində də keçirilməsi planlaşdırılıb. Aparat rəhbəri çıxışında Maliyyə Nazirliyinin əməkdaşlarının mütəmadi olaraq ali və orta ixtisas təhsili müəssisələrində keçirdikləri elmi-praktik, maarifləndirici tədbirlərin tələbələrin yüksək səviyyədə hazırlığı və gələcəkdə iş yerləri ilə təmin olunmalarındakı əhəmiyyətini də vurğulayıb.

Sonra Maliyyə Tədris Mərkəzinin direktoru Sevinc Cabbarova çıxış edərək mərkəzin fəaliyyəti haqqında və keçirilən təlimin proqramı barədə məlumat verib. Tədbirin proqramına uyğun olaraq Maliyyə Nazirliyinin Büdcə şöbəsinin baş məsləhətçisi Ramil Hüseynovun “Dövlət büdcəsini anlayaq”, nazirliyin İqtisadi sahələrin maliyyəsi şöbəsinin aparıcı məsləhətçisi Qənbər Xudiyevin “Ailə büdcəsinin tərtibi və onun tətbiqi” mövzularında hazırlanmış təlim materialı təqdim olunub. Mövzulara müvafiq olaraq gənclərdə ailə büdcəsinin effektiv planlaşdırılmasının məqsəd və əhəmiyyəti, ailə büdcəsinin təhlil olunmasının vacibliyi, xərclərin müəyyən edilməsi və təhlili, gəlirin idarə olunması və xərclərin gəlirə uyğun qurulması işlərinin əhəmiyyəti barədə danışılıb.

Tədbirdə mövzular ətrafında bilik səviyyələrinin yoxlanılması məqsədilə interaktiv mərhələ keçirilib. Bu mərhələdə 3 komanda iştirak edib və iştirakçılara mərhələnin nəticələrinə müvafiq fərqləndirici sertifikatlar və plaketlər təqdim olunub, qalib komandanın hər bir üzvünə oxunması zəruri olan kitablar verilib.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

## Məşqçi və idman müəllimləri üçün seminar keçirilib

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində təşkil olunan seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov açıb.*

Bildirilib ki, Naxçıvanda bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idmanın inkişafına da xüsusi əhəmiyyət verilir, yeniyetmə və gənclərin fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya komplekslərinin, digər obyektlərin istifadəyə verilməsi, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana cəlbinə hərtərəfli şərait yaradıb. Bu gün Yüngül Atletika Federasiyasının nəzdindəki klublar və rayon bölmələri yüksək nəticələr əldə edir, idmançılarımız çıxış etdikləri turnirlərdə, yarışlarda böyük uğurlar qazanırlar.



Qeyd olunub ki, hər il məşqçi və idman müəllimlərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müvafiq seminarlar, təlimlər təşkil olunur. Bu da yüngül atletika sahəsində yeni-yeni nailiyyətlərin əldə olunması məqsədi daşıyır. Cari ilin əvvəlində təsdiq edilmiş təqvim planına əsasən məşqçilər və idman müəllimlərinin iştirakı ilə keçirilən seminar da bu sahənin inkişafına öz töhfəsini verəcəkdir.

Sonra Azərbaycan Respublikası Atletika Federasiyasının məşqçisi, Hakimlər kollegiyasının sədr müavini Ceyhun Hüseynov məşqçi və müəllimlərə yüngül atletika üzrə uşaq, yeniyetmə və gənclərin hazırlanması metodları barədə geniş məlumat verib.

Sonda diskussiya olub, suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

## Seçmə yarışlar başa çatıb

*Naxçıvan Şahmat Mərkəzində şahmat üzrə Naxçıvan Muxtar Respublikası məktəbliləri arasında keçirilən seçmə yarışlarına yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda 100-dən çox zəka sahibi mübarizə aparıb.*

Reqlamentə əsasən 7, 9, 11, 13 və 15 yaşlı oğlanlar və qızlar ayrı-ayrı qruplarda ən güclünü müəyyənləşdirməyə çalışıblar. İsveçrə sistemi üzrə keçirilən yarış 7 turdan ibarət olub və hər görüşdə zəka sahiblərinə 60 dəqiqə vaxt verilib.

Yekun nəticəyə əsasən oğlanlar arasında Turan Mirzəyev (Naxçıvan şəhəri, 7 yaş), Əli Məmmədli (Naxçıvan, 9 yaş), Zahid Allahverdiyev (Naxçıvan, 11 yaş), Sadiq Qarayev (Naxçıvan, 13 yaş) və Əli Alıyev (Babək rayonu, 15 yaş) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar. Qızların mübarizəsində isə Nigar Qənbərli (Babək rayonu, 7 yaş), Almara İbrahimbəyli (Naxçıvan, 9 yaş), Nazlı Hümbətova (Naxçıvan, 11 yaş), Nəsrin Babayeva (Naxçıvan, 13 yaş) və Yeganə Əhmədova (Şərur rayonu, 15 yaş) hamıdan güclü olublar.

Qeyd edək ki, hər yaş qrupunun qalibi olan zəka sahibləri Azərbaycan çempionatının seçmə yarışlarında iştirak etmək hüququ qazanıblar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universiteti

*2019-cu il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elan edir*

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 noyabr tarixli 774 s nömrəli sərəncamına uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır.

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya Qiyabi şöbəyə, büdcə hesabına**

Diferensial tənliklər – 1 yer
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Müəssisələrin təşkili və idarə olunması – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

**Doktoranturaya Qiyabi şöbəyə, ödənişli əsaslarla**

Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
Ümumi iqtisadiyyat – 2 yer
Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer
German dilləri – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

**Dissertanturaya büdcə hesabına**

Fiziki kimya – 1 yer
Botanika – 1 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün məqsədli yer)
Qastroenterologiya – 1 yer
Hidravlika və mühəndis hidrologiyası – 1 yer
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
Dünya iqtisadiyyatı – 1 yer
Müəssisələrin təşkili və idarə olunması – 1 yer
Vətən tarixi – 1 yer
Mülki hüquq, sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq – 1 yer
Dil nəzəriyyəsi – 1 yer
Azərbaycan dili – 1 yer
German dilləri – 1 yer
Azərbaycan ədəbiyyatı – 1 yer
Dünya ədəbiyyatı – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 2 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün 1 məqsədli yer)
Teatr sənəti – 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

Analiz və funksional analiz – 1 yer
Üzvi kimya – 1 yer
İnsan və heyvan fiziologiyası – 1 yer
Parazitologiya – 1 yer
Daxili xəstəliklər – 1 yer
Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi – 1 yer
İnformasiyanın mühafizəsi üsulları və sistemləri, informasiya təhlükəsizliyi – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Müəssisələrin təşkili və idarə olunması – 1 yer
Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası – 1 yer
Ümumi tarix – 1 yer
Vətən tarixi – 1 yer
Azərbaycan dili – 1 yer
İran dilləri – 1 yer
Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
Musiqi sənəti – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- iş yerindən xasiyyətnamə;*
*- 3 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*
*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verməlidirlər.

**Elmlər doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına**

Deformasiya olunan bərk cisim mexanikası – 2 yer (Naxçıvan Müəllimlər İnstitutu üçün 1 məqsədli yer)
Folklorşünaslıq – 1 yer
Sosial fəlsəfə – 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

Botanika – 1 yer
Ümumi iqtisadiyyat – 1 yer
Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi – 1 yer

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
*- kadrların şəxsi-qeydiyyat vərəqi;*
*- tərcümeyi-hal;*
*- 3 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*
*- iş yerindən xasiyyətnamə;*
*- əmək kitabçasından çıxarış;*
*- çap olunmuş elmi işlərin siyahısı;*
*- “Fəlsəfə doktoru” və ya “elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***Doktoranturaya sənədlər 28 dekabr 2018-ci il tarixə qədər saat 9<sup>00</sup>-dan 17<sup>00</sup>-a kimi Naxçıvan Dövlət Universitetinin əsas binasında Elmi hissədə qəbul edilir.***

***Qəbul imtahanları 7-9-11 yanvar 2019-cu il tarixlərdə keçiriləcəkdir.***

***(Şənbə və bazar günləri sənədlər qəbul olunmur)***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 893